# Ey Dilbare Şirin Zbana

— *faramarz-abdollahpur* · 10 Mart 2024



Ey dilbəre şirin zəban
Hüsnun məni dutdı əyan
Aşuftə  etdun  halimi
Ahəstə get sən bir dayan

Suzilə dərdim söyləyim
Mehrilə vəsfin dinləyim
Sidqilə ismin ünləyim
Saldun məni eşqə inan

Ğəm gəldi ruxsarə gənə
Gəl eylə bir çarə mənə
Etmisən avarə yenə
Bağim gülim olmış xəzan

Ey nazənine məhleqa
Vey məhcəbine bavəfa
Mən sənuvam qorxma aqa
Nazuk ləbilə qıl bəyan

Ta nütqə gəlsin bu dilim
Dindirdi allah sövgülim
Mən ağlayım ya ki gülim
Qalmış təlatimdə bu can

Sövincəgimdən neyleyim
Hicran başa çatdı deyim
Ağ bəxt oldım ay bəyim
Qurban sənə bu baş bu can